# İşğalçılar Azərbaycan torpaqlarından çıxmalıdırlar!

**Prezident İlham Əliyev oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə videomüsahibəsində jurnalistin “Siz necə hesab edirsiniz, əldə olunmuş atəşkəsin tamamilə yerinə yetirilməsinə qayıtmaq mümkündür, yoxsa həmin atəşkəs tamamilə pozulub?” – sualına cavabında dövlətimizin başçısı Azərbaycanın öz tərəfdaşları ilə əlaqələr çərçivəsində üzərinə götürdüyü öhdəliklərə sadiq qaldığını bildirib.**

> ***Qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var. Bütün bunlar Rusiya tərəfinə çatdırılıb. Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan üzərinə götürdüyü öhdəliklərə sadiqdir

Ölkəmiz münaqişənin nizamlanmasına dair danışıqlar prosesində həmişə beynəlxalq hüquqa əsaslanıb. Eyni zamanda, münaqişənin dinc yolla həllinə çalışıb, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha nümayiş etdirib. Lakin bütün bunlara baxmayaraq, təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub. Danışıqlardan heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edib: “Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, – iki hücum olub, – həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni, Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi. Bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin görünür, onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. Yeri gəlmişkən, yaxın vaxtlarda, iki gün bundan əvvəl onlar eyni cür hərəkət etdilər. Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər”.

Yeri gəlmişkən, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayan vaxtdan etibarən işğalçı ölkə daim belə riyakar mövqe tutub. Faktlara nəzər salaq. Belə ki, 1992-ci ilin mayın 7-də Ermənistan prezidenti Levon Ter-Petrosyan və Azərbaycan prezidentinin səlahiyyətlərini icra edən Yaqub Məmmədov İran prezidenti Əli Əkbər Rəfsəncaninin vasitəçiliyi ilə Tehranda görüş keçirdi və atəşkəs razılığı elan olundu. Cəmi bir gün sonra –1992-ci il mayın 8-də erməni ordusu Şuşanı işğal etdi. Yaxud, 1992-ci il fevralının 21-də Azərbaycan, Rusiya və Ermənistan Xarici İşlər nazirlərinin Moskva görüşündə atəşkəs razılaşması imzalandı. Beş gün sonra erməni tərəfi Xocalı soyqırımını törətdi. Başqa bir misal. 2020-ci il oktyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan Xarici İşlər nazirlərinin Moskva görüşündə humanitar atəşkəslə bağlı razılıq əldə olundu. Atəşkəsin elan olunduğu gündən bir gün sonra –oktyabrın 11-də ermənilər Gəncəyə raket zərbələri endirdi. Nəticədə 5-i qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı, həmçinin 3 bina tamamilə dağıdıldı, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəydi.

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu cinayətlərə görə tam məsuliyyət daşıyır.

Ermənistanın davam edən hərbi təcavüzü və mülki insanlara qarşı qəddar hücumları dərhal dayandırılmalı və beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan xalqına qarşı olan bu qeyriinsani aktlarına göz yummamalıdır.

Terroru dövlət siyasəti vasitəsinə çevirən Ermənistanın hərbi-siyasi rəhbərliyi dinc əhalini raket atəşinə tutmaq qərarı verdiklərinə görə məsuliyyət daşıyırlar. Milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarlar ədalət mühakiməsinə cəlb edilməlidir.

Prezident İlham Əliyev videomüsahibəsində, həmçinin bildirib ki, Ermənistana silah satan dövlətlər Azərbaycan şəhərlərinin və rayonlarının bombalanması nəticəsində qadınlara, uşaqlara və körpələrə qarşı törədilən cinayətlərə ortaq olmaması üçün dərhal silah satışını dayandırmalıdır. Dövlətimizin başçısı qeyd edib ki, bununla bağlı Azərbaycan Rusiya tərəfinə belə bir narahatlığını çatdırıbdır: “Qarşıdurmanın aktiv fazasında Rusiya şəhərlərindən Ermənistan ərazisinə külli miqdarda silah keçirilir. Bizdə bu barədə məlumatlar var, uçuşların xəritələri var, silahların tipləri var... Əlbəttə, bu, bizim cəmiyyətdə çoxlu suallar və müəmmalar doğurur. Bax, vəziyyət belədir. Zəruri hallarda biz bu müddətdə Rusiya tərəfindən Ermənistana göndərilmiş silahların nomenklaturunu, bunların hansı nəqliyyat vasitələri ilə, hansı aviaşirkətlər tərəfindən çatdırılması barədə məlumatları dərc edə bilərik. Bunlar indi əsasən qeyri-qanuni şəkildə çatdırılır. Biz ICAO-ya rəsmən müraciət etmişik. Azərbaycan Xarici İşlər Nazirliyi ICAO-ya müraciət edib ki, müəyyən şirkətlərin nəqliyyat vasitələri ilə humanitar yüklər və Fövqəladə Hallar Nazirliyinin yükləri adı altında Ermənistana ölümsaçan silahlar çatdırılır,– yeri gəlmişkən, bütün bu məlumatlar bizdə də var, mətbuatda da. Həm Gürcüstan, həm də İran öz hava məkanını hərbi yüklər üçün bağladıqlarına görə, bu cür qaçaqmalçılıq metodlarından istifadə edilir...”.

Videomüsahibədə Ermənistan–Azərbaycan arasında vəziyyətin hələ də qaynar fazada olmasının ölkəmizin təqsiri üzündən baş vermədiyi vurğulanıb. Eyni zamanda, Azərbaycanın nizamlama prinsiplərinə sadiqliyinin dəfələrlə xatırladıldığı da qeyd edilib. Həm də bu prinsiplər çoxillik danışıqlar prosesində işlənərək, hazırlanıb. Dövlətimizin başçısı əvvəlki açıq çıxışlarında, habelə bu günlərdə mətbuat nümayəndələri ilə müsahibələrində Ermənistanın danışıqlar məcrasında özünü konstruktiv apardığı halda, Azərbaycanın dərhal hərbi əməliyyatları dayandırmağa hazır olduğunu diqqətə çatdırıb: “Lakin Yerevandan eşitdiyimiz bəyanatlar ATƏT-in Minsk qrupu tərəfindən hazırlanmış baza prinsiplərinə tamamilə ziddir. Ermənistan rəhbərliyi lap yaxın vaxtlarda baza prinsiplərini faktiki olaraq təkzib edən çox təhlükəli bəyanatlarla çıxış edib. Prinsip etibarilə, Ermənistanın yeni rəhbərliyinin bütün fəaliyyəti danışıqlar prosesinin pozulmasına yönəlib. Bu prosesi zəiflətməyə yox, məhz pozmağa. Mən onların çoxsaylı bəyanatları, təhrikçi hərəkətləri və Azərbaycanın dinc əhalisinə hücumları barədə danışmışam. Buna görə də, əgər erməni tərəfi nəhayət başa düşsə ki, hərbi təxribatlar yolu onları fəlakətə aparır, biz hərbi əməliyyatları yenidən dayandırmağa və məsələni danışıqlar masası arxasında həll etməyə hazırıq”.

Prezident İlham Əliyev videomüsahibədə Azərbaycanın döyüş meydanında öz üstünlüyünü nümayiş etdirdiyi, erməni ordusunun isə, əslində, fiaskoya uğradığı bir vaxtda hərbi xətt üzrə təcili görüş keçirilməyə hazır olması barədə də ətraflı danışıb. Dövlətimizin başçısı ordumuzun uğurlarına baxmayaraq, Azərbaycanın qan tökülməsinin davam etməsini istəmədiyini, insanların həyatını qoruyub saxlamağı arzu etdiyini, məsələnin siyasi yolla həll etməyə hazır olduğunu da xüsusi diqqətə çatdırıb.

Prezident İlham Əliyev TASS informasiya agentliyinə videomüsahibəsində Azərbaycanın müharibədə terrorçulardan istifadə etməsi ilə bağlı cəfəng iddiaları da rədd edib. Bildirib ki, bu cür narahatlıqlar əsassızdır. Bununla əlaqədar indiyədək hər hansı bir dövlət, eləcə də Ermənistan Azərbaycana heç bir fakt təqdim etməyib: “Bu cür bəyanatlar təkcə Rusiya tərəfindən deyil, Fransa tərəfindən də səslənirdi və biz xahiş etdik ki, bizim hansısa terrorçuları dəvət etməyimizə dair konkret faktlar, konkret sübutlar təqdim edilsin. İndiyə qədər bizə sözlərdən başqa heç bir fakt təqdim edilməyib. Nə Prezident kimi mənə, nə bizim xüsusi xidmətlərin rəhbərlərinə, nə də Müdafiə Nazirliyinin rəhbərlərinə heç bir fakt təqdim edilməyib. Yaxşı, əgər belə faktlar varsa, əgər bunu bəyan edirlərsə, nə üçün bizə faktlar təqdim edilmir. Hansısa qəzet məqalələrinə istinad edirlər. Bilirsiniz, indi nə istəsən yazmaq olar. Ona görə biz bu yanaşmanı əsla qəbul etmirik və bəyənmirik”.

Dövlətimizin başçısı söhbətində Azərbaycan tərəfinin terrorçuya, hansı bir ölkənin hərbi dəstək ifadə etməsinə ehtiyacı olmadığını da diqqətə çatdırıb. Çünki: “Azərbaycan Ordusu həm döyüş meydanında, həm də texniki təchizat baxımından üstünlüyünü göstərib. Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri – bunu gizlətmirəm, özü tuşlanan “Spike” raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir “S-300” zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik. Prinsip etibarilə onlar pilotsuz uçuş qurğularına qarşı işləməlidirlər, lakin PUA-lar onları məhv edib. Məgər bunları Suriyanın harasındansa gəlmiş terrorçular ediblər? Yaxud bu gün, bizim Ordumuz əraziləri azad edərkən kim orada həmin terrorçuları görüb? Bunlar bizim əsgərlər və zabitlərdir…”.

Bəli, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer alıb. Çünki son 17 ildə Prezident İlham Əliyevin fəaliyyətində ordu quruculuğu hər zaman prioritet istiqamət olub. Silahlı Qüvvələrə xüsusi diqqətin ayrılması hər şeydən öncə ölkəmizin müharibə şəraitində yaşaması ilə şərtlənib. Buna görə də hərbi hissələrin tikintisində Azərbaycan standartlarına üstünlük verilib, xidmətin yüksək səviyyədə aparılması üçün bütün sosial imkanlar yaradılıb. Hərbçilər dövlət tərəfindən yüksək təminatla əhatələnib. Əməkhaqları müntəzəm olaraq artırılıb. Ordumuzun silah-sursat, texnika ilə təchizatı da ən yüksək səviyyədə reallaşıb.

Bütün bunların nəticəsində hazırda Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir. Silahlı Qüvvələrimizin qüdrəti hələ Aprel və Tovuz döyüşləri, habelə Günnüt əməliyyatı zamanı özünün bir daha təsdiqini tapdı. Tovuz rayonu istiqamətində baş verən şiddətli döyüşlər də ordumuzun həm canlı qüvvəsinin, həm də hərbi texnikasının gücünü sübut etdi.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***